MEDİA İCMALI

# Türkiyə dron və hərbi texnika ixracını artırır

1 dəqiqə öncə




Türkiyənin "Baykar" şirkətinin istehsalı olan "Bayraktar Akıncı" PUA-sı 55-ci Beynəlxalq Paris Aviasiya Şousunda sərgilənir.

Türkiyədə dövlətin son 20 ildə investisiyaları ölkəni dron və digər hərbi texnikanın əsas ixracatçılarından birinə çevirib. "Reuters" yazır ki, NATO üzvü olan ölkə Qərbin yenidən silahlanması fonunda ixracı daha da genişləndirməyə çalışır.

Vaxtilə xarici silah istehsalçılarından ciddi asılı olan Türkiyə hazırda Körfəz ölkələri, Afrika, Asiya və Avropadan təxminən 40 ölkəyə silah satır. Bir çox alıcı Türkiyə məhsullarını alternativlərinə nisbətən daha ucuz, daha tez çatdırılan və daha universal sayırlar.

## 10 milyard dollarlıq müdafiə sənayesi ixracı

Türkiyənin müdafiə sənayesi ixracı 2021-ci ildən bəri üç dəfədən çox artaraq ötən il 10 milyard dollara çatıb. Bu, ölkənin ümumi ixracatının təxminən 3.7 faizini təşkil edir. Bunu agentlik ticarət statistikasının təhlilinə əsasən yazır.

Avropa və ABŞ-yə ixrac isə həmin dövrdə təxminən dörd dəfə artaraq 5.6 milyard dollara yüksəlib.

Türkiyənin aparıcı müdafiə sənayesi şirkətləri sırasına dron istehsalçısı "Baykar", TAI, "Arca Defense" və "Kale" daxildir.

Analitiklərin fikrincə, dövlət dəstəyi, çevik təchizat zəncirləri və alıcıların tələblərinə uyğun sistemlərin hazırlanması Türkiyə şirkətlərinə qlobal bazarlara sürətlə daxil olmağa imkan verib.

**Türkiyə hazırda dünyadakı silahlı dronların təxminən 65 faizini tədarük edir və mühüm sursat ixracatçısıdır.** Ölkə həmçinin freqatlar, təyyarədaşıyan gəmilər, hava hücumundan müdafiə sistemləri və zirehli texnika istehsal edir və ya bu istiqamətdə layihələr planlaşdırır.

## Maneələr

Bu arada ABŞ NATO müttəfiqlərindən müdafiə yükünün daha böyük hissəsini öz üzərinə götürməyi tələb edir və Almaniyadan minlərlə hərbçini çıxarmaq planları var. "Reuters" yazır ki, bütün bunlar Türkiyə üçün həm imkanlar, həm də qeyri-müəyyənlik yaradır.

Müdafiə naziri **Yaşar Gülər** aprel ayında Avropa müttəfiqlərini Türkiyə kimi Avropa İttifaqına üzv olmayan NATO ölkələrini təhlükəsizlik təşəbbüslərindən kənarda saxlamamağa çağırıb. Belə ki, Ankara Aİ-nin regional təhlükəsizliyə yönəlmiş SAFE proqramından, demək olar ki, kənarlaşdırılıb. Bəzi Avropa hökumətləri isə regional siyasətdəki fikir ayrılıqları və əsas müxalifət partiyasına qarşı genişmiqyaslı hüquqi təzyiqlər səbəbindən Ankaraya ehtiyatla yanaşır.

Bununla belə, Türkiyə şirkətləri Polşa, İspaniya, Portuqaliya və Rumıniya ilə müdafiə sahəsində təchizat müqavilələri imzalayıb. "Baykar" İtaliyanın "Piaggio Aerospace" şirkətini satın alıb və "Leonardo" ilə birgə istehsal üzrə tərəfdaşlıq qurub.

**Buna da bax:**

Ermənistan Bakını hədəf ala bilən dron düzəldib

Supergüclərin kabusu – Ucuz dronlar nəhəng orduları necə dayandırdı

Mülki PUA-lara nəzarət gücləndirilir: Yoxlamalar aparılacaq

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur